# HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ HESABATLARI

Sabit Bağırov,

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

10 Yanvar 2023

# Təqdimatda müzakirə edilənlər:

1. Hasilat sənayesinda son 19 ildə Hökumətin siyasəti;
2. Siyasətdəki dəyişikliklərin beynəlxalq standart prizmasından təhlili;
3. Beynəlxalq standarta yaxınlaşmaq üçün nə etməli?

# Hasilat sənayesinda son 19 ildə Hökumətin siyasəti

Üç dövr:

1) 2003 – 2016;
2) 2017 – 2019;
3) 2020-dən sonra

# Hasilat sənayesində 2003 - 2016- də Hökumətin siyasəti

Nələr qeyd oluna bilər:

- Azərbaycan fəal şəkildə 2003-cü ildə pilot ölkə statusunda «Hasilat Sənayesində Şəffaflıq» Beynəlxalq Təşəbbüsə qoşulur;
- Az. Hökuməti və VC təmsilçiləri qeyd edilən dövrdə Təşəbbüsün rəhbər orqanlarına daxil olur və HSŞ Standartının hazırlanması və tətbiqində fəal iştirak edir;
- Az. Hökuməti, neft şirkətləri və MSŞA Koalisiyası arasında Əməkdaşlıq Memorandumu imzalanır;
- Azərbaycan bir çox digər ölkə hökumətləri və vətəndaş cəmiyyəti qurumları üçün məktəbə çevrilir;
- 2014-cü ildə vətəndaş cəmiyyəti qurumlarının (o cümlədən Koalisiya üzvlərinin) fəaliyyət imkanları məhdudlaşdırılır.

# Əməkdaşlıq Memorandumunun imzalanması mərasimi 24.11.2004





# Hasilat sənayesində 2017 - 2019- də Hökumətin siyasəti

Bu dövrə aid siyasəti əks etdirən sənəd: «**Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında**» Azərbaycan Respublikası Prezidentinin 5 Aprel 2017-ci il tarixli Fərmanı.

Bu Fərmanla Azərbaycan Beynəlxalq Təşəbbüsü tərk edir. Lakin Fərmanda qeyd edilir ki: *«Azərbaycan bu və ya digər beynəlxalq təşəbbüsə üzv olub-olmamasından asılı olmayaraq, hasilat sənayesində şəffaflıq və hesabatlılıq üzrə bütün beynəlxalq səyləri dəstəkləyir və beynəlxalq standartların tətbiqini davam etdirmək əzmindədir».*

Bununla belə siyasətdə bəzi dəyişikliklər baş verir:

1) Hasilat Sənayesində Şəffaflıq üzrə yeni və daha mötəbər Komissiya yaradılır;

2) Beynəlxalq Standartın ən mühüm tələblərindən biri olaraq Çoxtərəfli Qrup rəsmiyyətdən çıxarılır.

Lakin İllik Hesabatlar Beynəlxalq Standarta uyğun hazırlanmaqda davam edir, vətəndaş cəmiyyəti qurumları həmin hesabatların layihələrinin müzakirələrində (ekspertləri təmsil olunmaqla) iştirak edir. Hesabtaların Komissiyada müzakirəsi və təsdiqi zamanı isə VC nümayəndələrinin daha geniş tərkibdə iştirak etmək imkanı verilir.

# Hasilat sənayesində 2020-ci ildən Hökumətin siyasəti

Hökumətin siyasətini əks etdirən əsas normativ hüquqi sənədlər:

- «**Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli Fərmanı**;

- AR Nazirlər Kabinetinin **«Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli 1114 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə»** 10 avqust 2020-ci il tarixli Sərəncamı;

- AR Dövlət Statistika Komitəsinin 2021-ci il 25 fevral tarixli 01/14s nömrəli Sərəncamı ilə təsdiq edilmiş «**HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏR SİSTEMİ».**

# Hasilat sənayesində 2020-ci ildən Hökumətin siyasəti

AR Prezidentinin **«Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında»** 28 iyul 2020 tarixli Fərmanı.

Fərmanda belə bir mühüm qeyd var: «*HSŞ sahəsində beynəlxalq standartların ardıcıl tərəfdarı olaraq* ...».

Fərmanla:

- HSŞ üzrə hesabatlılığın təmin edilməsi Dövlət Statistika Komitəsinə həvalə edilir;
- DSK-ya tapşırılır ki: 1) dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirsin; 2) HSŞ üzrə hesabatların davamlı toplanılmasını və toplanmış hesabatlar əsasında ümumiləşdirilmiş rəsmi statistika məlumatlarının ictimaiyyətə açıqlanmasını təmin etsin.
- Hesabatların təqdim edilməsi məqsədi ilə aidiyyatı dövlət qurumlarına tapşırıqlar verilir, xarici şirkətlərə isə tövsiyələr edilir.
- 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərman ləğv edilir.

# Hasilat sənayesində 2020-ci ildən Hökumətin siyasəti

AR Nazirlər Kabinetinin «**Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli 1114 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə**» 10 avqust 2020-ci il tarixli Sərəncamı.

HSŞ siyasəti ilə əlaqəli Sərancamda hər hansı yeni məqamlar yoxdur. Sərəncam sadəcə AR Prezidenti Fərmanının icrasının təmin edilməsinə yönəlib.

Sərəncamla aidiyyatı qurumlara tapşırılır ki:

- 2 ay ərzində öncəki normativ hüquqi aktları AR Prezidentinin 28.07.2020 Fərmanına uyğunlaşdırsınlar;
- AR Prezidenti Fərmanı ilə əlaqəli digər tədbirləri NK ilə razılaşdırmaqla həyata keçirsinlər.

# Hasilat sənayesində 2020-ci ildən Hökumətin siyasəti

AR Dövlət Statistika Komitəsinin 2021-ci il 25 fevral tarixli 01/14s nömrəli Sərəncamı ilə təsdiq edilmiş «**HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏR SİSTEMİ».**

Göstəricilər qrupları:

**1) Hasilat sənayesi müəssisələrinin sayı**

**2) Hasilat göstəriciləri**

**3) İxrac göstəriciləri**

**4) Əsas infrastruktur göstəriciləri**

**5) Hasilatla əlaqədar dövlətə ayırmalar və ödənişlər**

**6) Neft və qaz sazişləri çərçivəsində dövlət tənzimləyici funksiyalarının həyata keçirilməsinə görə Dövlət Neft Şirkətinə Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici və yerli neft şirkətləri (birgə müəssisələr) tərəfindən edilən ödənişlər, verilmiş xam neftin, təbii və səmt qazının həcmi**

**7) Müəssisələrin xərcləri**

**8) Müəssisələrin aktivləri**

**9) İnvestisiya**

**10) Məşğulluq və əməkhaqqı**

**11) Ölkə üzrə enerji balansı**

**12) Xam neft (qaz kondensatı daxil olmaqla) üzrə əmtəə balansı**

**13) Təbii qaz üzrə əmtəə balansı**

**14) Ölkə üzrə bəzi makroiqtisadi göstəricilər**

***14 qrupda cəmi 218 göstərici mövcuddur.***

# Dövlət Statistika Komitəsinin hazırladığı və ictimaiyyətə təqdim etdiyi Hesabatlar






# Dövlət Statistika Komitəsinin hazırladığı 2022-ci il Hesabatı

Hesabat «**HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏR SİSTEMİ»nə uyğun hazırlanıb.**

Hesabatda göstəricilər 2019, 2020 və 2021-ci illər və şirkətlər üzrə təqdim edilir.

Hesabat 17 (bunlardan 16-sı neftin və qazın hasilatı sazişləridir) Hasilatın Pay Bölgüsü Sazişində iştirak edən şirkətlərin məlumatları əsasında hazırlanıb. 23 xarici şirkət və SOCAR-ın ortaq və ya qız şirkətləri (dəqiq statuslarının müəyyən etmək olmur).

Şirkətlərin məlumatı ilk dəfə elektron qaydada toplanıb. DSK-nın veb-səhifəsində (https://www.azstat.org/loginControl/faces/main.xhtml;jsessionid=34f9bda2e38e3209812db07d19f2?cid=1 ) müvafiq imkanlar təmin edilir. Məlumatların hazırlanmasına dair şirkətlər üçün **“Hasilat sənayesində şəffaflıq üzrə statistik göstəricilər sistemi”**ində əks olunmuş göstəricilərin doldurulmasına dair tövsiyələr də veb-səhifədə var: https://www.stat.gov.az/menu/4/e-reports/az/04/004.php

# HSŞ üzrə Beynəlxalq Standartın tələbləri

- Tələb №1. Çoxtərəfli Qrup tərəfindən nəzarət;
- Tələb №2. Müqavilə və lisenziyalaşdırma da daxil olmaqla hüquqi və təşkilati əsaslar;
- Tələb №3. Kəşfiyyat və hasilat;
- Tələb №4. Gəlirlər;
- Tələb №5. Gəlirlərin bölüşdürülməsi;
- Tələb №6. Sosial-iqtisadi ehtiyaca yönələn xərclər;
- Tələb №7. Nəticələr və təsirlər

# Beynəlxalq Standartın 1-ci Tələbi: Çoxtərəfli Qrup tərəfindən nəzarət

Bu Tələbə uyğun Hökumət, VC və şirkətlərin nümayəndələrindən ibarət Çoxtərəfli Qrup (ÇQ) yaradılmalı. ÇQ Hesabatın hazırlanması sürəcində (prosesində) iştirak və nəzarət etməlidir.

Bu tələb qüvvədə olan normativ hüquqi sənədlərlə təmin edilmir. Bunun nəticəsi olaraq ***Hesabat Beynəlxalq Standartın bu Tələbinə cavab vermir.***

# Beynəlxalq Standartın 2-ci Tələbi: Müqavilə və lisenziyalaşdırma da daxil olmaqla hüquqi və təşkilati əsaslar

Bu Tələbə uyğun Hesabatlar Hasilat Sənayesində mövcud normativ hüquqi sistemi, müqavilələrin imzalanması qaydalarını və vergi rejimini əks etdirməlidir. Bunlardan başqa bu tələbə uyğun Hökumətin lisenziyalar reyestrinə istinadlar olmalıdır. Hesabatda müqavilələrin açıqlanması vəziyyəti və benefisiar sahiblərin açıqlanmasına dair müvafiq məlumatlar Hesabatda təqdim edilməlidir.

***Beləliklə  Hesabat Beynəlxalq HSŞ Standartın 2-ci Tələbinə cavab vermir.*** Bununla belə, DSK-nın veb-səhifəsində Azərbaycan tərəfindən imzalanmış müqavilələrdən 13-ü açıqlanır.

# Beynəlxalq Standartın 3-cü Tələbi: Kəşfiyyat və hasilat

Bu Tələbə uyğun Hesabatda faydalı qazıntıların kəşfiyyatına, hasilatına və ixracına dair məlumatlar əks etdirilməlidir.

Hasilata və ixraca dair məlumatlar əks etdirilir, lakin kəşfiyyət işləri ilə əlaqədar hər hansı məlumat verilmir.

***Beləliklə  Hesabat Beynəlxalq HSŞ Standartın hasilatın və ixracın açıqlanmasına dair 3-cü Tələbə cavab verir, lakin kəşfiyyat işlərinə dair 3-cü Tələbə cavab vermir.***

Onu da qeyd edək ki, kəşfiyyata dair məlumatların açıqlanması «**HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏR SİSTEMİ»-ndə** nəzərdə tutulmur.

# Beynəlxalq Standartın 4-cü Tələbi: Gəlirlərin açıqlanması

Bu Tələbə uyğun Hesabatda açıqlanmalı olan bunlardır:

1) vergilər və gəlirlər barədə tam şəkildə;
2) hasil edilmiş və natural şəkildə dövlətin payına düşən neft, qaz və digər faydalı qazıntıların satışına dair məlumatlar;
3) infrastruktur obyektlərin tikintisi və barter əməliyyatları barədə məlumatlar;
4) nəqldən (daşınmadan) əldə olunan gəlirlər;
5) dövlət müəssisələrinin iştirakı ilə həyata keçirilən əməliyyatlar;
6) submilli səviyyədə ödənişlər;
7) məlumatların detallaşdırılması səviyyəsi;
8) məlumatların vaxtında təqdim edilməsi;
9) məlumatların keyfiyyəti.

# Beynəlxalq Standartın 4-cü Tələbi: Gəlirlərin açıqlanması

Hesabatın Beynəlxalq Standartın 4-cü Tələbinə cavab verməsinə dair aşağıdakılar qeyd edilə bilər:

1) vergilər və gəlirlər barədə məlumatlar Sazişlərin iştirakçıları olan şirkətlər üzrə böyük qismdə açıqlanır. Bəzi şirkətlər üzrə məlumatlar açıqlanmır;
2) hasil edilmiş və natural şəkildə dövlətin payına düşən neft, qaz və digər faydalı qazıntıların satışına dair məlumatlar Sazişlərin iştirakçıları olan şirkətlər üzrə böyük qismdə açəqlanır. Bəzi şirkətlər üzrə məlumatlar açıqlanmır;
3) infrastruktur obyektlərin tikintisi və barter əməliyyatları barədə məlumatlar açıqlanmır. Bununla belə neft və qaz quyularının sayı və ixrac kəmərlərinin uzunluğu göstərilir;
4) nəqldən (daşınmadan) əldə olunan gəlirlər açıqlanmır;

# Beynəlxalq Standartın 4-cü Tələbi: Gəlirlərin açıqlanması

5) dövlət müəssisələrinin iştirakı ilə həyata keçirilən əməliyyatlara dair xüsusi bölmə Hesabatda mövcud deyil;
6) submilli səviyyədə ödənişlər Azərbaycanda nəzərdə tutulmur;
7) açıqlanan məlumatların detallaşdırılma səviyyəsi Hesabatda qaneedicidir;
8) məlumatların vaxtında təqdim edilməsi qaneedicidir;
9) məlumatların keyfiyyətinə dair Hesabatda qeydlər mövcud deyil.

***Beləliklə, Hesabat Beynəlxalq Standartın 4-cü Tələbinə əsasən cavab verir.***

# Beynəlxalq Standartın 5-ci Tələbi: Gəlirlərin bölüşdürülməsi

Bu Tələbə uyğun Hesabatda açıqlanmalı olan bunlardır:

1) gəlirlərin bölüşdürülməsi;
2) submilli səviyyəyə köçürmələr;
3) gəlirlər və xərclərin idarə edilməsi.

***Bu Tələbə dair Hesabatda məlumatlar əks etdirilmir.***

# Beynəlxalq Standartın 6-cı Tələbi: Sosial-iqtisadi ehtiyaca yönələn xərclər

Bu Tələbə uyğun Hesabatda açıqlanmalı olan bunlardır:

1) şirkətlərin sosial ehtiyaclara və ətraf mühitin qorunmasına xərcləri;
2) dövlət şirkətlərinin kvazifiskal xərcləri;
3) Hasilat Sənayesinin ölkə iqtisadiyyatına töhvəsi;
4) Hasilat Sənayesinin ətraf mühitə təsirləri.

***Hesabat Beynəlxalq Standartın bu Tələbinə cavab vermir.***

# Beynəlxalq Standartın 7-ci Tələbi: Nəticələr və təsirlər

Bu Tələbə uyğun Hesabatda açıqlanmalı olan bunlardır:

1) Hesabatların ictimai müzakirəsi;
2) Açıq verilər konsepsiyası;
3) Tövsiyələr;
4) Nəticələrin və təsirlərin icmalı.

***Hesabat Beynəlxalq Standartın bu Tələbinə cavab vermir.***

# 2017-ci ilə qədərki Hesabatlarla hazırki Hesabatların müqaisəsi nəyi göstərir

Beynəlxalq Standarta uyğun olmayan tasarım (dizayn):

- Standartın tələb etdiyi bir çox mühüm məlumatlar verilmir;
- Standartın tələb etdiyi VC iştirakçılığı təmin edilmir;
- Şirkətlərdən əldə olunan məlumatların auditdən keçdiyinə dair məlumatın olmaması;
- Hər hansı analitik mülahizələrin olmaması;
- Bir sıra şirkətlər tərəfindən bir çox göstəricilər üzrə məlumatlar açıqlanmır. Səbəb kimi qeyd edilir ki: *Şirkətlər tərəfindən məlumatların açıqlanmasına icazə verilmədiyinə görə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin tələblərinə uyğun olaraq həmin məlumatların Dövlət Statistika Komitəsi tərəfindən ictimaiyyətə açıqlanması mümkün olmamışdır.*
- Hesabatın PDF faylı şəklində DSK vebsaytında təqdim edilməsi;
- Hesabatın adi vətəndaşlar üçün oxunaqlı qısa variantının olmaması;
- Digər fərqlər.

# Hesabatların normativ-hüquqi aktlara uyğunluğu

Hesabatlar mövcud normativ-hüquqi aktlara əsasən uyğundur. Lakin sual doğuran bir məqam var.

«Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli Fərmanında belə bir ifadə var: «***HSŞ sahəsində beynəlxalq standartların ardıcıl tərəfdarı olaraq Azərbaycan Respublikası* bu dəyişikliklərin ölkəmizdə tətbiqini təmin etməyi və onların müsbət nəticələrindən yararlanmağı zəruri hesab edir».**

Beləliklə, Hesabatların Beynəlxalq Standarta uyğunsuzluğu bu Fərmanla ziddiyət təşkil edir.

# HSŞ üzrə Hesabatların Beynəlxalq Standartın tələblərinə riayət üzrə Tövsiyələr

Ölkənin HSŞ Təşəbbüsündə üzvlüyünün bərpası. Bu məqsədə uyğun görünməzsə HSŞ Hesabatlarının hazırlanmasını 2017 Prezidentin Fərmanına uyğunlaşdırmaq. Yəni həmin Fərmanı yenidən qüvvəyə mindirmək.

# Hasilat Sənayesində şəffaflığın artırılmasına dair tövsiyələr

1) Hesabatlarda bütün şirkətlər üzrə məlumatların tamlılığının təmin edilməsi;

2) AR Dövlət Statistika Komitəsinin 2021-ci il 25 fevral tarixli 01/14s nömrəli Sərəncamı ilə təsdiq edilmiş «**HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ STATİSTİK GÖSTƏRİCİLƏR SİSTEMİ**»ni Beynəlxalq Standarta yaxınlaşdırılması;

3) Göstəricilərin Sazişlər üzrə cəmləşdirilməsi. Bu hər bir Sazişin ölkə iqtisadiyyatına töhvəsini göstərə bilər;

4) Hesabatların ictimai müzakirəsinin genişləndirilməsi.

# TƏŞƏKKÜRLƏR!

Sabit Bağırov,

bagirov.sabit@gmail.com